Kaspi 2020.- 23-31 may.- S.7.

# “Əbdürrəhim Bəy Haqverdiyev -150”


Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Milli Kitabxanası

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV
150

DAYCEST

BAKI - 2020

1

Bu il görkəmli yazıçı-dramaturq, pedaqoq, ədəbiyyatşünas, ictimai-siyasi xadim, teatr xadimi, publisist, tənqidçi, Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illik yubileyi qeyd edilir.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar olaraq Milli Kitabxana “Əbdürrəhim Bəy Haqverdiyev -150” adlı daycesti virtual rejimdə təqdim edib.

Təqdim olunan daycestdə görkəmli dramaturqun həyatı, ədəbi-ictimai, pedaqoji və diplomatik fəaliyyətindən bəhs edən, 2010-2020-ci illərdə ölkə ərazisində müxtəlif dövri nəşrlərdə dərc edilən məqalələr araşdırılıb və seçmə yolu ilə diqqətə çatdırılıb. Daycestin hazırlanmasında məqsəd görkəmli ədibin həyatı, ictimai-siyasi, pedaqoji fəaliyyəti, bizlərə miras qoyduğu əvəzsiz irsindən bəhs edən məqalələrlə geniş oxucu kütləsini tanış etməkdir.

Daycestdə məqalələr “Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı”, “Əbdürrəhim bəy Haqverdiyevin ədəbi-ictimai və pedaqoji fəaliyyəti”, “Əbdürrəhim bəy Haqverdiyevin diplomatik fəaliyyəti”, “Əbdürrəhim bəy Haqverdiyev irsinin tədqiqi” və “Əbdürrəhim bəy Haqverdiyevin əsərləri teatr səhnələrində” adlı bölmələrdə toplanıb. Hər bir bölmədə məqalələr illər üzrə, daxildə isə əlifba düzülüşü ilə verilib. Daycestlə tanış olmaq istəyənlər bu linkdən istifadə edə bilərlər. http://anl.az/down/DAYCEST.pdf